


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 89 (21.499)

17 may 2016-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də İran İslam Respublikasının kənd təsərrüfatı naziri Mahmud Höccətinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin bütün sahələrdə inkişafının razılıq doğurduğunu deyib. Azərbaycan ilə İranın dost, qardaş, qonşu ölkələr olduğunu vurğulayan Prezident İlham Əliyev hər iki ölkənin siyasi rəhbərliyinin İran-Azərbaycan əlaqələrinin daha da yüksək səviyyədə olması üçün çalışdıqlarını məmnunluqla qeyd edib. Kənd təsərrüfatının ölkələrimiz üçün vacib sahələrdən biri olduğunu deyən dövlətimizin başçısı digər sahələrdə olduğu kimi bu sahədə də Azərbaycan-İran əməkdaşlığının yaxşı nəticələr verəcəyini əminliklə bildirib.

Dövlətimizin başçısı İran İslam Respublikasının kənd təsərrüfatı naziri Mahmud Höccətinin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri zamanı əməkdaşlığımıza dair danışıqların səmərəli olacağına və birgə layihələrin icrası istiqamətində ciddi addımlar atılacağına ümidvar olduğunu bildirib.

Nazir Mahmud Höccəti son vaxtlar ölkələrimiz arasında münasibətlərin daha da möhkəmləndirilməsi istiqamətində görülən işlərin İranda böyük məmnunluqla qarşılandığını deyib.

Görüşdə ölkələrimiz arasında kənd təsərrüfatı sahəsində investisiya qoyuluşu, birgə müəssisələrin yaradılması və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Hamiliyə verilmiş ixtisaslarda təhsil alan tələbələrlə növbəti görüş



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi Naxçıvan Dövlət Universitetinin İqtisad fakültəsinin tələbələri ilə görüş keçirib.

Nazirlik əməkdaşlarının da iştirak etdiyi tədbiri rektor, AMEA-nın müxbir üzvü, professor Saleh Məhərrəmov açaraq qeyd edib ki, sözügedən sərəncam birgə uğurlu əməkdaşlığın formalaşması, muxtar respublikada ali təhsilin inkişafı, peşəkar kadr hazırlığının səviyyəsinin yüksəldilməsi, bu sahədəki mövcud problemlərin aradan qaldırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Xalid İsgəndərov çıxış edərək adıçəkilən sərəncamın icrası məqsədilə hazırlanan tədbirlər planı, nazirliyin müvafiq struktur bölmələrində tələbələrin gələcək ixtisaslarını praktik şəkildə mükəmməl mənimsəmələri üçün yaradılan şərait barədə məlumat verib. Xalid İsgəndərov "Mühasibat uçotunun təkmilləşdirilməsinin əhəmiyyəti" mövzusunda məruzə edərək müasir dövrdə mühasibat uçotunun beynəlxalq səviyyədə unifikasiyası, mühasibat uçotu sistemlərinin təkmilləşdirilməsi və hüquqi tənzimlənməsi, milli mühasibat uçotu standartlarının tətbiqi, idarəetmə uçotunun aparılması mexanizmi məsələlərindən danışıb.

Sonda müəllim və tələbələrin sualları cavablandırılıb. Nazirlik tərəfindən fakültəyə müxtəlif kitab və dərsliklər, elmi-tədqiqat nəşrləri təqdim olunub.

**Xəbərlər şöbəsi**

## Muxtar respublikada ötən ay 474 daşınmaz əmlak obyekti qeydiyyata alınmışdır

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi muxtar respublikada əmlak və torpaq münasibətlərinin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində qəbul edilən qərarların icrasını diqqət mərkəzində saxlayır.***

Bu istiqamətdə işlər aprel ayında da davam etdirilmiş, daşınmaz əmlakın hüquqi ekspertizası və reyestrinin aparılması işləri çərçivəsində 474 daşınmaz əmlak obyekti qeydiyyata alınmışdır. Həmçinin ilkin qeydiyyat, bölünmə və birləşmə nəticəsində yaranmış 92 yeni daşınmaz əmlak obyektinə ünvanlar verilmiş və ünvan xəritələrində qeydiyyatı aparılmışdır. Şərur rayonunun Dəmirçi və Gümüşlü, Ordubad rayonunun Vələver və Parağa, Şahbuz rayonunun Keçili, Babək rayonunun Sirab, Culfa rayonunun Bənəniyar kəndlərində, Kəngərli rayonunun Qıvraq qəsəbəsində vətəndaşlara səyyar xidmət göstərilmiş, 101 müraciətə baxılmışdır.

"Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ilə əlaqədar dövlət ehtiyat fondu və qış otlaq sahələrində olan əkinəyararlı torpaq sahələrinin əkin dövriyyəsinə cəlb olunması məqsədilə Şərur rayon dövlət ehtiyat fondu və qış otlaq sahələrində olan əkinəyararlı torpaq sahələrinin müəyyənləşdirilməsi üçün ərazilərin xəritələrinin hazırlanması işi davam etdirilmişdir. Babək rayonunun Vayxır, Aşağı Buzqov və Gərməçataq bələdiyyələrinin sərhəd xəritələrinə dair müvafiq yerquruluşu sənədləri elektron variantda hazırlanmış və torpaqların növləri üzrə uçotu aparılmış, Ordubad rayonunun Gənzə, Gilançay və Xanağa bələdiyyələrinin ərazisində mövcud mülkiyyət növləri üzrə torpaq sahələrinin elektron torpaq kadastr xəritələri hazırlanmışdır. Babək rayonunun Xal-xal kəndində isə həyətyanı torpaq sahələrinin plana alınması başa çatdırılmış, əldə olunan materiallar məlumat bazasına daxil edilmişdir.

Göstərilən elektron xidmətlərin təkmilləşdirilməsi də diqqət mərkəzində saxlanılmış, komitənin elektron xidmətləri siyahısına əlavə olunmuş 8 yeni elektron xidmətin inzibati reqlamentləri təsdiq edilmiş və komitənin internet saytında yerləşdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti**

## İstehlakçılar dayanıqlı elektrik enerjisi ilə təmin olunur



***Muxtar respublikada enerji təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir, elektrik stansiyalarının və yarımstansiyaların fasiləsiz işi təmin olunur.***

2016-cı ilin aprel ayında elektrik stansiyaları, ümumilikdə, orta hesabla 51,2 meqavat gücündə işləmiş və muxtar respublika ərazisində fasiləsiz elektrik enerjisi dövriyyəsi təmin edilmişdir.

Həyata keçirilən qabaqlayıcı və cari təmir işləri nəticəsində ay ərzində elektrik enerjisi təchizatında heç bir çətinlik olmamışdır. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin əməkdaşları tərəfindən elektrik stansiyaları, yüksək və alçaq gərginlikli elektrik verilişi xətləri, transformator yarımstansiyaları mütəmadi texniki baxışdan keçirilmiş, yeni transformator yarımstansiyaları və elektrik verilişi xətləri çəkilmiş, şəhər və rayon mərkəzlərində mövcud hava elektrik verilişi xətləri yeraltı kabel xətləri ilə əvəz edilmişdir. Ümumiyyətlə, ötən ay muxtar respublikanın şəhər, qəsəbə və kəndlərində 7 yeni transformator yarımstansiyası qoyulmuş, 8 transformator təmir edilmiş, 5,5 kilometr uzunluğunda yeni elektrik verilişi xətləri çəkilmiş, 1 kilometr hava elektrik verilişi xətti kabel xətti ilə əvəz edilmişdir. Bu dövrdə Naxçıvan şəhərində 350 smartkarttipli sayğac quraşdırılmışdır. Bundan başqa, elektrik enerjisindən istifadə olunması vəziyyətinin yoxlanılması məqsədilə reydlər davam etdirilmiş, əhali arasında maarifləndirici söhbətlər aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin mətbuat xidməti**

***Naxçıvan Dövlət Universitetində keçirilən "BMT Modeli" konfransı öz işini başa vurub.***

## Naxçıvanda keçirilən "BMT Modeli" konfransı başa çatıb

Bir neçə gün davam edən konfrans Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi ilə BMT-nin İnkişaf Proqramının "Qlobal siyasi müzakirələrdə gənclərin fəal iştirakının dəstəklənməsi üçün yeni platformalar yaradılması haqqında" adlı birgə layihəsi çərçivəsində reallaşdırılıb. Layihənin əsas məqsədi ölkədə BMT Modeli hərəkatının institutlaşdırılması, ali təhsil müəssisələrində MUN klublarının təsis edilməsi və onları birləşdirəcək MUN şəbəkəsinin yaradılmasıdır. Konfransda BMT Baş Assambleyasının işi "Təhsildə yeni imkanların yaradılması üçün beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi" mövzusunda simulyasiya edilib. Azərbaycanın müxtəlif ali məktəblərinin, o cümlədən Naxçıvan Dövlət Universiteti və "Naxçıvan" Universitetinin tələbələri burada iştirak ediblər. Tələbələr BMT-nin üzvü olan müxtəlif dövlətlərin təmsilçisi qismində çıxış edərək həmin ölkənin təhsillə bağlı mövqeyini ortaya qoyublar, digər ölkələrin təmsilçiləri ilə fikir mübadiləsi, müzakirələr aparıblar. Təhsil strategiyası və siyasi maraqları üst-üstə düşən ölkələr koalisiya halında birləşiblər. Müxtəlif koalisiyaların təklifləri gözdən keçirilib, sonda tələbələr tərəfindən hazırlanan, BMT-nin Baş Assambleyasına təqdim oluna biləcək sənəd, ümumi qətnamə qəbul olunub.

Konfransın yekun tədbirində çıxış edən simulyasiyanın sədri Azər Abasəliyev vurğulayıb ki, Naxçıvanda keçirilən bu konfrans ilə ölkə miqyasında ən böyük "BMT Modeli" konfransı olan Milli MUN konfransı ənənəsi qoyulub.

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Röya Səfərova konfransın tələbələrə diplomatiya və beynəlxalq münasibətlər sahəsində yeni bilik və bacarıq aşılamaq, ingilis dili biliklərini, siyasi təfəkkürlərini inkişaf etdirmək baxımından əhəmiyyətindən danışıb.

Sonra konfransın fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib, konfrans iştirakçılarına sertifikatlar verilib. Sonda "Ən yaxşı mövqe sənədi", "Ən yaxşı debatçı", "Ən yaxşı debütant" və "Ən yaxşı nümayəndə" nominasiyalarının qalibləri elan olunub, onlara xüsusi sertifikatlar təqdm edilib.

**Mehriban SULTAN**

## Muxtar respublikada nəqliyyat xidməti günün tələblərinə cavab verir



***Muxtar respublikada sərnişinlərə göstərilən nəqliyyat xidmətinin səviyyəsinin yüksəldilməsi istiqamətində işlər aprel ayında da davam etdirilmiş, 139 marşrut xətti üzrə 305 avtobusla rayon mərkəzləri və kəndlərin hamısına gediş-gəliş təmin edilmişdir.***

Aprel ayında İran İslam Respublikası ərazisindən Naxçıvan-Bakı-Naxçıvan marşrutu üzrə gediş-gəlişin daimi fəaliyyəti də təmin olunmuş, Naxçıvandan Bakıya 61 reys vasitəsilə 1954 sərnişin daşınmışdır. Bakıdan Naxçıvana gələnlərin sayı isə 2098 nəfər olmuşdur. Bu dövrdə daşımalarla məşğul olan hüquqi və fiziki şəxslərin maarifləndirilməsi işi genişləndirilmiş, "Naxçıvan" Universitetinin Turizm informasiya mərkəzində kurs təşkil olunmuş, taksi sürücülərinə muxtar respublikanın tarixi-mədəni abidələri və muzeyləri haqqında məlumat verilməsi, eləcə də ingilis və rus dillərində qarşılanma terminologiyasının öyrədilməsi işinə başlanılmışdır.

Aprel ayında nazirliyin reyd komissiyası, Nəqliyyat müfəttişliyi və təhlükəsizlik şöbəsi 9 dəfə reyd keçirmiş, avtonəqliyyat vasitələrinin təmizliyinə, şəhərdaxili və rayonlararası marşrutlarda hərəkət qrafikinə nəzarət artırılmışdır.

**Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidməti**

## Beynəlxalq Ailə Günü qeyd edilib

***Mayın 15-də Beynəlxalq Ailə Günü münasibətilə Naxçıvan şəhərindəki "Təbriz" mehmanxanasında tədbir keçirilib.***

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov bildirib ki, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası 1993-cü ildə hər il mayın 15-nin "Beynəlxalq Ailə Günü" kimi qeyd olunması barədə qərar qəbul edib.

Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişafın təmin edilməsi ailələrin həyat səviyyəsinin yaxşılaşmasına geniş imkanlar yaradıb. Xüsusi qayğıya ehtiyacı olan ailələrin sosial problemlərinin həlli, müharibə əlili və şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, müvafiq kateqoriyalı məhdud fiziki imkanlı şəxslərin minik avtomobilləri ilə təmin edilməsi, habelə ailənin əmək qabiliyyətli hər bir üzvünün məşğulluq imkanlarının artırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.





Qeyd olunub ki, bu günədək 204 əlil və şəhid ailəsi mənzillərlə, respublikamızın ərazi bütövlüyü uğrunda mübarizədə, 1941-1945-ci illər müharibəsində, Çernobıl qəzasının ləğvində iştirak edərək sağlamlığı imkanları məhdudlaşan 454 nəfər minik avtomobili ilə təmin olunub. Bununla yanaşı, Milli qəhrəmanlara və şəhid ailələrinə Prezident təqaüdü, müxtəlif meyarlar üzrə, o cümlədən ailə başçısını itirənlərə, beşdən çox uşağı olan qadınlara, həmçinin digər kateqoriyadan olan şəxslərə sosial müavinət, aztəminatlı ailələrə ünvanlı dövlət sosial yardımı ödənilir. Ahıl ailələrin sosial hüquqlarının təmin olunması, onların sağlamlıqlarının qorunması istiqamətində də bir sıra tədbirlər görülür. Hər il uzunömürlü ailələrin "gümüş", "qızıl" və "brilyant" toyları qeyd olunur.

"Ailə dəyərləri hər zaman xalqımızın milli düşüncəsində ən yüksək yer tutub. Buna görə də uzaq keçmişdən ölkəmizdə ailənin qurulmasına mühüm hadisə kimi yanaşılıb, onun təməlinin möhkəm olmasına çalışılıb. Ötən əsrin 70-ci illərindən başlayaraq xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən ailə dəyərlərinin də daxil olduğu milli dəyərlərimizin qorunub-yaşadılması diqqət mərkəzində saxlanılıb. Müstəqilliyimizin bərpasından sonra isə ölkəmizdə ailə problemlərinin həlli istiqamətində mühüm tədbirlər həyata keçirilib, müvafiq qanunvericilik bazası yaradılıb".

Bu fikirləri Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxışında səsləndirib.

Qeyd olunub ki, 1999-cu ildə qəbul edilən Azərbaycan Respublikasının Ailə Məcəlləsi ailə münasibətlərinin tənzimlənməsini özündə əks etdirən əsas hüquqi sənəddir. Ailə Məcəlləsində ailənin möhkəmləndirilməsi zərurəti, ailə münasibətlərinin qarşılıqlı məhəbbət və hörmət hissləri əsasında qurulması, ailənin işlərinə kənar şəxslərin müdaxiləsinin yolverilməzliyi, ailə üzvlərinin ailə qarşısında məsuliyyəti və onların hüquqlarının maneəsiz həyata keçirilməsi öz əksini tapıb. Bundan əlavə, ölkəmizdə ana və uşaqların sağlamlığının möhkəmləndirilməsi, əhalinin reproduktiv sağlamlığının qorunması, sağlam uşaqların doğulması üçün zəruri şəraitin yaradılması nəzərdə tutan bir sıra qanunlar qəbul edilib. Bir sözlə, müasirləşən ailə institutunun təməllərinin möhkəmliyi təmin olunub, onun nüfuzunun artmasına nail olmaq üçün ciddi addımlar atılıb.

Bildirilib ki, müstəqilliyimizi əldə etdiyimiz son 25 ildə muxtar respublikamızda da dövlət ailə siyasəti uğurla həyata keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 28 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması və fəaliyyətinin təmin olunması ailə institutunun qorunması məqsədilə həyata keçirilən ardıcıl tədbirlərdəndir. Hazırda muxtar respublikada 94 min 558 ailə yaşayır. Bunlardan 2702-si aztəminatlı, 1401-i qaçqın və məcburi köçkün, 244-ü isə şəhid ailəsidir. Bütün kateqoriyadan olan ailələr hərtərəfli diqqət və qayğı ilə əhatə olunublar. Onların sosial rifahının yaxşılaşdırılması üçün yeni iş yerləri açılır, müavinətlər, ünvanlı dövlət sosial yardımı təyin edilir.

Aztəminatlı ailələrə xüsusi diqqət və qayğı ilə yanaşılması muxtar respublikada ailə siyasətinin ana xəttini təşkil edir. Naxçıvan Muxtar Respublikasının aidiyyəti dövlət orqanlarının nümayəndələri son illər muxtar respublikada yaşayan 200-dən artıq aztəminatlı ailəyə baş çəkib, onların problemlərinin həlli istiqamətində müvafiq işlər görülüb, ailə üzvlərinə tibbi xidmət göstərilib.

Vurğulanıb ki, ailə sağlam olmazsa, cəmiyyətin sağlam olmasından danışmaq mümkün deyil. Bunun üçün isə xalqımızın ailə dəyərlərini yaşadılması, həmçinin milli dəyərlərin gənc nəsillərə aşılanması, ailə üzvlərinin reproduktiv sağlamlığının qorunması vacibdir. Ona görə də mütəmadi olaraq muxtar respublikanın kənd mərkəzlərində müvafiq mövzularda konfranslar, seminarlar, müsabiqələr və festivallar keçirilir, uzunömürlü ailələrin nümayəndələri ilə yeniyetmə və gənclərin görüşü təşkil edilir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edib. Qeyd olunub ki, Azərbaycanda dövlət ailə siyasətinin formalaşması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ailə dəyərlərini xalqımızın ən böyük sərvəti hesab edən ulu öndərimiz bu dəyərlərin qorunmasını daim diqqətdə saxlayırdı. Ümummilli liderin bütün həyatı və fəaliyyəti nəsillərə nümunə olmaqla yanaşı, ideal ailə başçısı kimi göstərdiyi örnək də misilsizdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən dövlət ailə siyasəti uğurla davam etdirilir. Ölkəmizdə ailələrə xüsusi diqqət göstərilir, ailələrdəki uşaqların sağlam böyüməsi, kamil tərbiyə və təhsil alması üçün lazımi şərait yaradılır. Pensiya və yemək haqlarının artırılması, eləcə də digər sosial tədbirlərin ardıcıl və sistemli həyata keçirilməsi Azərbaycan ailələrinin maddi təminatını yaxşılaşdırıb.

"Muxtar respublikamızda da dövlət ailə siyasəti uğurla həyata keçirilir. Bu sahədə mühüm işlər görülür, aparılan sosial siyasət ailələrin maddi və mənəvi tələbatlarının ödənilməsinə, həyat səviyyəsinin yüksəldilməsinə xidmət edir. Bu gün Naxçıvan Muxtar Respublikasında 94 mindən çox ailə yaşayır. Bütün kateqoriyadan olan ailələr hərtərəfli diqqət və qayğı ilə əhatə olunublar", – deyən Rəhman Məmmədov bildirib ki, muxtar respublikada yaşayan aztəminatlı ailələr, o cümlədən Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüşlərdə sağlamlığını itirmiş və ya şəhid olmuş vətəndaşların ailələrinin mənzillə təminatı diqqətdə saxlanılır, onların sosial müdafiəsi gücləndirilir.

Bildirilib ki, gənc ailələrin ipoteka yolu ilə mənzillə təmin olunması üçün də əlverişli şərait yaradılıb. Ailələrin sosial rifahının yaxşılaşdırılması üçün müavinətlər, ünvanlı sosial yardımlar təyin edilir. Hər il muxtar respublikamızda istifadəyə verilən onlarla təhsil, səhiyyə və mədəniyyət müəssisələri ailələrə nümunəvi tibbi xidmətin göstərilməsinə, gənclərin savadlı və dünyagörüşlü yetişməsinə, asudə vaxtlarını səmərəli keçirmələrinə xidmət edir.

Əhalinin məşğulluğunun artırılması da diqqətdə saxlanılır, ötən müddət ərzində bu istiqamətdə ardıcıl tədbirlər görülüb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilən "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" ailələrin sosial rifahının yaxşılaşdırılmasında, işaxtaranların məşğulluğunun təmin edilməsində mühüm əhəmiyyət daşıyır.

Qeyd olunub ki, muxtar respublikamızda sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi və reabilitasiyası üzrə həyata keçirilən tədbirlər də ailələrə dəstək istiqamətində dövlət tərəfindən görülən işlər sırasındadır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilən "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı" əqli və fiziki imkanlarının məhdudluğundan asılı olmayaraq uşaqların cəmiyyətə inteqrasiyası, müasir tələblər səviyyəsində təhsil alması baxımından mühüm əhəmiyyət kəsb edir.

Rəhman Məmmədov Beynəlxalq Ailə Günü münasibətilə bütün ailələri təbrik edib, onlara uzun ömür və xoşbəxtlik arzulayıb.

Tədbirdə uzunömürlü, gənc və Azərbaycan Vətən Müharibəsi əlili ailələrin üzvləri çıxış edərək muxtar respublikada ailələrin rifah halının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərə görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

Beynəlxalq Ailə Günü münasibətilə ailələrə hədiyyələr təqdim olunub.

Sonra Beynəlxalq Ailə Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi tərəfindən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri və gənclər arasında keçirilən "İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik" mövzusunda III muxtar respublika yazı və rəsm müsabiqələrinin qalibləri mükafatlandırılıblar.

Tədbirdə Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin "Şəlalə" instrumental ansamblının, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının mahnı və rəqs qrupunun, nümunəvi musiqiçi ailələrin üzvlərinin və Naxçıvan şəhərindəki 12 nömrəli uşaq bağçası fidanlarının ifa və çıxışları alqışlarla qarşılanıb.

**Xəbərlər şöbəsi**

***Muxtar respublikada fəaliyyət göstərən ümumtəhsil məktəblərinin şagirdləri üçün təşkil olunmuş Ağbulaq İstirahət Mərkəzinə həftəsonu gəzintiləri davam edir. Mərkəzin budəfəki qonaqları muxtar respublikanın ümumtəhsil müəssisələrində təhsil alan aztəminatlı ailələrin uşaqları olublar.***

## Ağbulaq İstirahət Mərkəzinin *növbəti qonaqları aztəminatlı ailələrin uşaqları olub*



Səhər saat $9^{00}$-da Naxçıvan şəhərindən bu istiqamətə yola çıxan avtobusda 45 şagird və bir neçə müəllimlə yanaşı biz də var idik. Uşaqlar bir-birlərinə getdikləri yer haqqında suallar verirlər: "Yol uzaqdırmı?", "Gec çatarıq?", "Ora soyuqdurmu?" və sair kimi suallardan aydın olur ki, onların çoxu Ağbulaqda olmayıb. Üzlərindəki ifadədə maraq qarışıq həyəcan sezilir – üz tutduqları məkana tez çatıb oranın necə bir yer olduğunu görmək həyəcanı... Bunu bütün şagirdlərdə hiss etsəm də, yanımda əyləşən, həyəcanı susqunluğuna hopmuş Yavərin durğunluğu mənə maraqlı gəlir. O, avtobusda olan digər uşaqlar kimi yoldaşları ilə söhbət etmir. Kəngərli rayonundan olan 8-ci sinif şagirdi Yavər Əliyev bildirir ki, o, Ağbulağa ilk dəfədir, gedir. Getdiyi yer haqqında heç bir məlumatı olmayan Yavərin heç nə soruşmamasının səbəbi hər şeyi öz gözləri ilə görmək istəyindən irəli gəlir. Deyir ki, qabaqcadan hər şeyi soruşsan onda gəzintinin nə marağı qalar ki?

50 dəqiqəlik yolu qət etdikdən sonra Ağbulaq İstirahət Mərkəzinə çatırıq. Məktəblilər hər cür şəraitə malik, geniş, rahat və işıqlı otaqlarda yerləşdirilir. Əşyalarını yerbəyer edib, mərkəzlə tanış olub, nahar yeməklərini yedikdən sonra Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həmzə Sadiqov tərəfindən onlara rəsm üzrə ustad dərsi keçilir. Budur, uşaqlar Həmzə müəllimin başına toplaşıb onun kətan üzərində yağlı boya ilə çəkdiyi mənzərə janrında olan əsərə diqqətlə nəzər yetirirlər. Həmzə Sadiqov dərs müddətində şagirdlərə rəssamlar və rəsm əsərləri haqqında müxtəlif suallar verir, rəssamlığın bəzi janrları haqqında onları məlumatlandırır. Dərsin sonunda uşaqlardan birinin dərs haqqında təəssüratlarını öyrənmək istəyirəm. Bu məqsədlə bir şagirdə yaxınlaşıram. Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbin 7-ci sinif şagirdi Əli Əsədov incəsənətin bəzi növləri ilə maraqlandığını, rəsm çəkməyi çox sevdiyini və bu baxımdan da keçilən ustad dərsin ona xeyli köməklik edəcəyini deyir.

Rəssamlıq üzrə ustad dərsindən sonra uşaqlar idman müəlliminin nəzarəti altında bir sıra maraqlı oyunlara qatılırlar. Daha sonra isə onlar üçün Naxçıvan Dövlət Kukla Teatrının aktyorları tərəfindən "Meşə macəraları" adlı tamaşa göstərilir.

Stolüstü oyunlar oynadıqdan sonra yeməkxanada şam yeməyinə dəvət olunan şagirdlər yeməklərin dadından və çeşidindən, göstərilən xidmətlərdən razı qaldıqlarını bildirirlər.

Axşam vətənpərvərlik mövzusunda "Nuhun yurdu" adlı sənədli film nümayiş olunur. Film bitdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himnini oxuyan uşaqlar yatmaq üçün otaqlara yollanırlar.

İstirahətlərinin ilk gününü başa vuran şagirdlərdən Ağbulaq barədə təəssüratlarını öyrənmək üçün Ordubad şəhər 1 nömrəli tam orta məktəbdə oxuyan Aysu Hətəmovaya yaxınlaşıram. O, vətənpərvərlik mövzusunda izlədiyi filmi xüsusilə bəyəndiyini bildirir, bu filmin sivilizasiyanın beşiyi olan Naxçıvanımızın mədəniyyətini, tarixini özündə əks etdirdiyi üçün öyrətmə məqsədli əhəmiyyətindən danışır.

İstirahətin ikinci günündə uşaqlar saat $8^{00}$-da yuxudan oyanırlar və meydana toplaşırlar. Burada idman müəlliminin iştirak etdiyi səhər gimnastikası ilə məşğul olan uşaqları dadlı-tamlı səhər yeməyi gözləyirdi. Bundan sonra isə uşaqlardan ibarət "Ağbulaq" və "Batabat" komandaları "Nuh yurdu" intellektual oyununda biliklərini sınadı. Oyunun qalibi olan "Ağbulaq" komandası mükafatlandırıldı.

Mərkəzə dəvət olunmuş Aşıq Aydın tərəfindən ifa edilən saz havaları uşaqların yarış sonrası yorğunluğunu tamamilə unutdurur. Onlar sazın müşayiəti ilə rəqs edir, əylənirlər. Kiçik konsertdən yüksək əhval-ruhiyyə ilə ayrılan uşaqlardan biri – Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbin şagirdi Mehriban Mahmudovanın dediklərindən aydın olur ki, səsləndirilən havalar onların zövqünü oxşayıb.

Günün ikinci yarısında onlar rəssamlıq üzrə ikinci ustad dərsində iştirak edirlər.

Saatın irəliləyən əqrəbləri uşaqların evə qayıtma vaxtlarını da yaxınlaşdırır. "Uşaqlarla söhbət etməyin tam vaxtıdır", – deyib kənarda söhbətləşən bir qrup şagirdə yaxınlaşıram. Onlardan İlham Cəfərov burada digər həftəsonlarından çox fərqli bir həftəsonu keçirdiyini, buranın ona yeni dostlar qazandırdığını bildirir.

Digər bir şagird Nemət Yusifli isə burada keçirdiyi 2 günün onun üçün yaddaşından əsla çıxmayacaq qədər dəyərli günlər olduğunu deyir.

İdman oyunlarından sonra yola çıxmağa hazırlaşmaq üçün otaqlarına yollanan uşaqların susqunluqlarından sanki deyə bilmədikləri "mən getmək istəmirəm" cümləsini eşidirəm.

$17^{00}$-da artıq şəhərə çatan şagirdlərin bir qismini valideynlər, bir qismini isə məsul qurumların nümayəndələri qarşılayır. Şagirdləri qarşılayan valideynlərdən biri – Culfa şəhər sakini İlham Məmmədov əmindir ki, övladı Ağbulaqda keçirdiyi günləri uzun müddət yaddan çıxarmayacaq, əlaçı şagird olmağa səy göstərib yenidən həmin ünvana getməyə çalışacaqdır. Valideynlər uşaqlar üçün bu layihəni təşkil edənlərə minnətdarlıqlarını bildirirlər.

Qeyd edək ki, şagirdlərin Ağbulağa budəfəki səfəri Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər və İdman Nazirliyi, Həmkarlar İttifaqları Şurası tərəfindən təşkil olunmuşdu.

✍ **Fatma BABAYEVA**

# Əvvəlki illərin məzunları üçün II və III ixtisas qruplarına qəbul imtahanı keçirilib

***May ayının 15-də Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) əvvəlki illərin məzunları üçün II və III ixtisas qrupları üzrə qəbul imtahanı keçirib.***

Qeyd edək ki, imtahan respublikanın 11 şəhərində – Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Şəki, Ağcabədi, Göyçay, Şirvan, Lənkəran və Xaçmaz şəhərlərində, ümumilikdə, 27 binada aparılıb. Naxçıvan Muxtar Respublikasında Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə keçirilən imtahanda 743 abituriyent iştirak edib.

6 imtahan rəhbəri və 75 nəzarətçinin rəhbərliyi ilə keçirilən imtahan saat $11^{00}$-da başlanıb və 3 saat davam edib.

İmtahan vermiş abituriyentlərin cavab kartlarının emalı başa çatdıqdan sonra nəticələr və hər bir abituriyentin cavab kartının qrafik təsviri TQDK-nın internet saytında yerləşdiriləcək. Abituriyentlər imtahanın nəticələri barədə məlumatı həmçinin mobil telefonla iş nömrələrini 7727 nömrəsinə göndərməklə öyrənə biləcəklər.



# Onların hər günü, hər saatı, hər dəqiqəsi dövlətin nəzarətindədir

## *Ordubad şəhərindəki internat məktəbindən reportaj*



***Uzun illərdir, qəzetdə fəaliyyət göstərdiyimə, özüm də təhsil işçisi olduğuma görə təhsil mövzusunda onlarla məqalə yazmışam. Bu dəfə seçdiyim mövzu mənə doğma olsa da, çətinlik çəkdiyimi etiraf etməliyəm. Haradan, necə başlayacağımı bilmirəm. Çünki bu dəfə hazırlayacağım yazı qapalı bir təhsil müəssisəsi – Ordubad şəhərindəki internat məktəbi barədədir. Uzun illər bundan əvvəl bu məktəbdə olmuşdum. O zaman məktəbdə xeyli nöqsanlarla rastlaşmışdım. Yararsız vəziyyətdə olan məktəb binasında dərsin keyfiyyəti çox aşağı idi. Yataqxana şəraiti də yaxşı vəziyyətdə deyildi. 2006-cı ildə yeni məktəb binası tikilərək istifadəyə verilib. Açılış mərasimində ölkə başçısı cənab İlham Əliyevin iştirak etməsi məktəb kollektivinin böyük sevincinə səbəb olub. Yolumuz yenidən həmin məktəbədir.***

Səhər saat $11^{00}$-da məktəbin qapısına çatırıq. Təhsil ocağının gözətçisi Əli Mirzəyev məktəb direktoruna gəldiyimizi bildirdikdən sonra içəri daxil oluruq. Bütün şagirdlər və müəllimlər məktəbin həyətinə toplaşıb. Ön sırada bir neçə həyəcanlı şagird görürəm. Məktəbin direktoru Musa Ağayev bildirir ki, sonuncu sınaq imtahanında uğurlu nəticə göstərmiş şagirdlər fəxri fərmanlarla təltif olunurlar. O biri şagirdlər bunu görəndə daha həvəslə çalışıb bu cür fərmanları almağa can atırlar, – deyən məktəb direktoru ilə söhbət edə-edə təhsil ocağına daxil oluruq.

10 ildir ki, müasir şəraitdə fəaliyyət göstərən məktəb ilbəil uğurlarını artırır. Bu barədə bəhs etməzdən əvvəl iştirak etdiyimiz dərslərdən aldığımız təəssüratları qeyd etmək istəyirəm. Bildirim ki, burada 405 şagirdin təhsili ilə 69 müəllim və tərbiyəçi məşğul olur. Sevindirici haldır ki, məktəbdə gənc müəllimlər çoxluq təşkil edir. Elektron sinifli otağa baş çəkirik. X sinifdə Azərbaycan tarixi dərsidir. Müəllimə Şərafət Babayeva elektron lövhədə slaydlar vasitəsilə tarixboyu yaşanılan və xalqımızın başına gətirilən müsibətləri şagirdlərin diqqətinə çatdırır. Müəllimə də həyəcanlıdır, şagirdlər də. Bunu başa düşmək çətin deyil. Bir azdan zəng vurulur. Şagirdlərlə həmsöhbət oluram. Verdiyim suallardan aldığım cavablar göstərir ki, burada şagirdlər hərtərəfli qayğı əhatəsindədirlər. Onlardan Hüseyn Abdullayevlə söhbətləşirəm. Nümunəvi şagirdlərdən biridir. Sınaq imtahanlarında 650-700 arası bal toplayır. Ən böyük arzusu kompüter mütəxəssisi olmaqdır.

Vətəni sevmək, Vətən naminə yaşamaq, ona xidmət göstərmək üçün hansısa seçilmiş sənət, peşə sahibi olmağa lüzum yoxdur. Fəhlə də, həkim də, alim də Vətən üçün yaşaya, öz əməyi ilə Vətənin şöhrətini yüksəldə bilər. Kifayətdir ki, ürəkdə təpər, istək, təəssübkeşlik olsun. Torpaqlarımızın bir hissəsinin işğal altında qaldığı bir dövrdə Azərbaycan gəncliyinin düşmənə qarşı mübarizə əzminin artırılması, onun hərbi-vətənpərvərlik ruhunun gücləndirilməsi günümüzün ən aktual məvzusudur. Müstəqilliyimizin möhkəmləndirilməsi, sərhədlərimizin etibarlı şəkildə qorunması, hər şeydən əvvəl, gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsini tələb edir. Bu isə onların hələ orta təhsil illərindən başlayaraq ordu sıralarında xidmətə hazırlanmasını zəruriləşdirir. Bu baxımdan gənclərin ümumtəhsil məktəblərində hərbi xidmətə hazırlanmasını nəzərdə tutan Gənclərin çağırışaqədərki hazırlığı fənninin yüksək səviyyədə tədrisi xüsusi əhəmiyyətə malikdir. İnternat məktəbində bu fənn yüksək səviyyədə tədris olunur. Nəticə etibarilə buranın şagirdləri hərbi oyunlara böyük ruh yüksəkliyi ilə hazırlaşırlar. Buna görə də onlar bu yarışlarda yaxşı nəticələr əldə edirlər. Gənclərin çağırışaqədərki hazırlığı fənnini tədris edən Yusif Məmmədov bildirir ki, ötən il məktəbin “Dübəndi” komandası “Sərhəd” hərbi-idman oyunlarının respublika mərhələsində birinci yerə layiq görülüb və Azərbaycan Təhsil, Gənclər və İdman nazirliklərinin diplomları ilə təltif edilib. Təhsil ocağının şagirdlərinin fəal iştirak etdikləri belə yarışlar Azərbaycan gəncliyinin Vətənə daha möhkəm tellərlə bağlılığının sertifikatına, daha aydın desək, milli koduna çevrilməsinə, onların işğal olunmuş torpaqlarımızın xilası naminə vahid ideya mərkəzində birləşməsinə öz müsbət təsirini göstərir. Bu yarışların fəal iştirakçısı Zaur Əhmədlinin dediklərindən:

– Sədərək rayonunda anadan olmuşam. Beşinci sinifdən internat məktəbində təhsil alır, burada da qalıram. Gözümü sərhəd bölgəsində açmışam. Uşaqlıq illərim sərhəd bölgəsində keçdiyinə görə düşmənlərin bizə çəkdirdiklərini çox eşitmişəm. Hər zaman bu hisslərlə yaşamışam ki, düşməndən intiqam alım. Torpaqlarımız azad olunsun. İki ildir, bu hisslərlə hərbi-idman oyunlarında iştirak edir, qələbə qazanırıq. Bir gün bu qələbəni düşmən üzərində qazanacağıq. Bu günlərdə torpaqlarımız uğrunda gedən döyüşlərdə neçə gənc şəhid oldu. Onların qanı yerdə qalmayacaq.

Zaur dərslərinin hamısını yaxşı oxuyur. Bu il qəbul imtahanında iştirak edəcək. Sınaq imtahanlarında 450-500 arası bal toplayır. Bu nəticəni daha da yüksəldib istədiyi universitetə qəbul olmağı qarşısına məqsəd qoyub.

Sinifdəki şagirdlərin çöhrələrinə gözüm sataşır: hamısının baxışlarından inam, mərdlik, mübarizlik sezilir. Onlar Vətənin müdafiəsinə hər an hazırdırlar. Həmsöhbət olduğum gənclər müstəqil Azərbaycan dövlətinin keşiyində ləyaqətlə duracaq, ərazi bütövlüyümüzün qorunması, ölkəmizin yüksəlişi, qüdrətlənməsi naminə var-qüvvələri ilə çalışacaqlar.







Məktəbdə fiziki tərbiyə dərslərinin yüksək səviyyədə keçilməsini də müşahidə edirəm. Buna görə də məktəbin idman yarışlarında qazandığı uğurlar da az deyil. İdman meydançasında şagirdlərə fiziki tərbiyə fənnini böyük həvəslə tədris edən gənc müəllimlərdən Cəbrayıl Hüseynov ötən dərs ilindən bu məktəbdə çalışır. O deyir:

– Uşaqlıqdan idmana böyük həvəsim olub. İdman insanları təşəbbüskarlığa, əməksevərliyə, səbrə, iradəli olmağa, dözümə sövq edir. İdman insanda özünə, öz gücünə arxalanmaq, komanda yoldaşına yardım göstərmək, ən başlıcası isə Vətəni sevmək kimi vacib keyfiyyətləri formalaşdırır. Buna görə də mən bu fənni yüksək səviyyədə tədris etməyə çalışıram. Şagirdlər fiziki tərbiyə dərslərinə böyük maraqla yanaşırlar. Dərsdən sonra onların müxtəlif idman növləri ilə məşğul olmasını da diqqətdə saxlayırıq.

Şahmat müəllimi Sevda İsmayılova şagirdlərə bu oyunun sirlərini öyrədir. O deyir ki, şahmat möcüzəli bir oyundur. Bu idman növü hələ uşaq vaxtından insanda qalib gəlmək əzmini formalaşdırır, insanın zehni inkişafında mühüm rol oynayır. Şahmatı təkcə idman növü kimi yox, eyni zamanda insanın məntiqini zənginləşdirən elm kimi də qəbul etmək lazımdır. Bütün bunları nəzərə alaraq şahmatı yüksək səviyyədə şagirdlərə mənimsədirik. Uğurlarımız da çoxdur. Şagirdlərimizdən Zahir Babayev, Nurlan Babayev, Elnar Zeynalov, Şövkətxanım Babazadə və başqaları şahmat üzrə turnirlərdə uğurlu nəticələr qazanırlar.

Məktəbdə təmin olunmuş yüksək nizam-intizam qazanılan uğurların başlıca səbəbidir. Ən böyük uğurlardan biri təhsil ocağının 2007-2008-ci tədris ilində keçirilmiş “Ən yaxşı ümumtəhsil məktəbi” müsabiqəsinin qalibi olmasıdır. Məktəb qəbul imtahanlarında da yüksək nəticələr əldə edir. Ötən tədris ilində məktəbi 13 nəfər bitirib. Onlardan 12-si müxtəlif ali məktəblərə, biri isə orta ixtisas məktəbinə qəbul olunub. 5 nəfər 500-700 arası intervalında bal toplayıb.

Təhsil elə bir sahədir ki, burada dövlətin qayğısı və əməli fəaliyyət mühüm rol oynayır, müəllim əməyi, müəllim biliyi, pedaqoji ustalıq tələb olunur. Bunu kollektiv dərindən dərk edir, məktəbdənkənar və sinifdənxaric tədbirlərin keçirilməsinə böyük önəm verir, dərsdən sonra şagirdlərin hazırlığı ilə məşğul olmaq üçün onları hazırlıq qruplarına cəlb etmək diqqətdə saxlanılır. Təhsil ocağının pedaqoji kollektivi şagirdlərin adlarının tələbələr sırasında olması üçün var-qüvvəsi ilə çalışır. Bir məsələni də xüsusi qeyd edək ki, müəllimlər şagirdlərin milli dəyərlərə, yaradıcı təfəkkür və məntiqi yanaşmaya malik, dünyagörüşlü gənclər kimi yetişdirilməsinə ciddi yanaşırlar. Məktəbin bir neçə müəllimi dövlətin ən yüksək mükafatlarına layiq görülüb. Rəhimə Ramazanova, Dilarə Mustafayeva, Tahirə Rzayeva, Nərgiz Həsənəliyeva və başqalarının adlarını nümunəvi müəllimlər sırasında çəkə bilərik. Həmin müəllimlərdən biri, tərbiyə işləri üzrə direktor müavini, Azərbaycan Respublikasının Əməkdar müəllimi Mehman Vəlibəyovla həmsöhbət oluram:

– Bilirsiniz ki, məktəbimiz digər təhsil ocaqlarından fərqlənir. Şagirdlərimiz məktəbdə təhsil almaqla yanaşı, həm də burada qalırlar. Bunun məsuliyyəti böyükdür. Onların hərtərəfli böyüməsi üçün səfərbərik. Məktəbi bitirən gənclərin cəmiyyətdə öz yerini tutması üçün əlimizdən gələni edirik. Bunun üçün bizə hər cür şərait yaradılıb.

Məktəbin direktoru Musa Ağayev söhbətimizə qoşulur. O, rəhbərlik etdiyi məktəbdə qazanılan uğurların səbəblərini həm də məktəb kollektivinin işinə məsuliyyəti ilə izah edir. Bildirir ki, dövlət qayğısı, yaradılan şərait və tədris işinə məsuliyyət hissi məktəbimizdə vəhdət təşkil edir. Əldə edilən nəticələrin artırılmasında məktəbdənkənar tədbirlərin, xüsusilə test-sınaq imtahanlarının obyektiv formada keçirilməsinin böyük əhəmiyyəti var. Hər sınaq imtahanının nəticələri müəllimlərlə birgə müzakirə olunur.

Artıq nahar vaxtı çatıb. Dərsi bitən şagirdlər yeməkxanaya gəlirlər. Biz də yeməkxanaya daxil oluruq. Baş aşpaz Kamilə Mailova deyir ki, məktəbin şagirdləri sağlam qida ilə təmin olunurlar. Hər gün yeməkxananın növbətçi müəllim və şagirdləri olur. Elə bu anda iki qardaş diqqətimdən yayınmır. Onlar mənə tanış gəlir. Uran və Ural Əmirov əkiz qardaşlarını Naxçıvan şəhərindəki Körpələr Evi və Ailələrə Dəstək Mərkəzindən tanıyıram. İndi onlar V sinifdə oxuyurlar. Bu gün yeməkxanada onlar növbətçidirlər. Uranla ayaqüstü söhbət edirəm. Məktəbini çox sevir. Dərslərini də əla oxuyur. Sınaq imtahanlarında 500-dən yuxarı bal toplayır. Sual verirəm: – Böyüyəndə hansı ixtisasa yiyələnmək istəyirsən? Verdiyi cavab: – Riyaziyyat müəllimi. Çünki qayıdıb öz məktəbimizdə mənim kimi uşaqlara dərs demək istəyirəm.

Məktəbdə olduğum vaxt burada uşaqlara qarşı dərin doğmalıq və mehribanlıq hiss etdim. Nahar vaxtı tərbiyəçi müəllimlər şagirdlərə öz övladları qədər qayğı və nəvazişlə yanaşırdılar.

Saat $19^{00}$. 60 nəfər şagird yataqxanaya üz tutur. Bu şagirdlərdən kimisi hər iki valideynini, kimisi valideynlərindən birini itirib. Kimisi valideynləri tərəfindən tərk edilib. Yataqxanada onlarla bir saat vaxt keçirdik, söhbət etdik. Dəhlizdə sinif yoldaşlarına nə isə həvəslə danışan Coşqun Sadiqov bildirdi ki, “Ölkəmizi tanıyaq” tur-aksiya çərçivəsində Bakı şəhərində olub. Onun dediklərindən:

– Sədərək rayonundanam. VII sinifdən bu məktəbdə təhsil alıram. Məktəbə gələndə bura alışmaqda çox çətinliklər yaşadım. Amma sonralar buranı evimiz qədər doğma hiss elədim. Bizə hər cür diqqət göstərilir. Xəstələnəndə belə, müəllimlərimiz və dayələrimiz bizə ana münasibəti bəsləyirlər. Biz şagirdlər də dərslərimizə yaxşı çalışırıq. XI sinifdə təhsil alıram. 550-dən yuxarı bal toplayıram. Dövlətimiz bizim bütün qayğılarımızı öz üzərinə götürüb. Ona görə biz də həyatımızı düzgün qurmalıyıq.

*Saat $21^{00}$-ı göstərir. Növbətçi dayələr işıqları söndürür. Sakitlik çökür ətrafa. Bu sakitlikdə 60 ürəkdən nələr keçdiyini duymaq istəyirəm. Ancaq bu istəyin çətinliyini başa düşürəm. Bununla belə sevinirəm ki, bu gül balalar nə kimsəsizdirlər, nə də tək. Onların sağlam böyüməsi, biliklərə yiyələnməsi, milli-mənəvi dəyərlərə sadiq vətəndaş kimi yetişməsi, üzləşdikləri çətinliklərin həll olunması diqqətdə saxlanılır. Onların hər günü, hər saatı, hər dəqiqəsi dövlətin nəzarətindədir. Onlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi diqqət və qayğısı əhatəsindədir. Heç şübhə yoxdur ki, bu gənclərimiz yaxşı oxuyacaq, həyatlarını düzgün quracaq, dövlətimiz üçün layiqli vətəndaşlar kimi yetişəcəklər.*

**Sara ƏZİMOVA**

## Kikboksinq üzrə “Azərbaycan kəməri” uğrunda peşəkarlar arasında turnir başa çatıb



*Şərur Rayon Olimpiya-İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş kikboksinq üzrə “Azərbaycan kəməri” uğrunda peşəkarlar arasında turnir uğurla başa çatıb.*

Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyinin, Azərbaycan Kikboksinq və Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti federasiyalarının birgə təşkilatçılığı ilə keçirilən turnirin iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında ucaldılan abidəsini, Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Şərur Rayon Olimpiya-İdman Kompleksində kikboksinq üzrə “Azərbaycan kəməri” uğrunda peşəkarlar arasında ölkə turnirinin açılış mərasimində çıxış edən Azərbaycan Kikboksinq Federasiyasının prezidenti, Milli Məclisin deputatı Adil Əliyev bildirib ki, əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan idman siyasəti bu gün dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Nəticədə, Azərbaycan artıq regionda və dünyada idman ölkəsi kimi şöhrət qazanıb. Ölkəmiz müxtəlif idman növləri üzrə respublika, qitə və beynəlxalq səviyyəli yarışların keçirildiyi məkana çevrilib. Təsadüfi deyil ki, bu gün ölkəmizdə beynəlxalq səviyyəli müxtəlif yarışlar, idman tədbirləri keçirilir. Bu, Azərbaycanın idman ölkəsi kimi tanınmasından və dünya ölkələri arasında böyük nüfuz qazanmasından xəbər verir.

“Sürətlə inkişaf edən, gündən-günə daha da gözəlləşən Naxçıvan Muxtar Respublikasında da idman sahəsinə xüsusi qayğı və diqqət göstərilir. Muxtar respublikada mövcud olan ən müasir idman infrastrukturu burada nüfuzlu idman tədbirlərinin keçirilməsinə şərait yaradır. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş kikboksinq üzrə “Azərbaycan kəməri” uğrunda peşəkarlar arasında turnirin Şərur Rayon Olimpiya-İdman Kompleksində keçirilməsi də muxtar respublikanın idman məkanı kimi böyük şöhrət qazanması ilə əlaqədardır”, – deyən Adil Əliyev diqqətə çatdırıb ki, Naxçıvan bu gün həm də idmanın inkişafı baxımından Azərbaycanın digər bölgələrinə nümunədir.

Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında idmanın daim böyük diqqət və qayğı ilə əhatə olunduğunu deyən muxtar respublikanın gənclər və idman naziri Azad Cabbarov qeyd edib ki, bu gün Naxçıvan beynəlxalq idman yarışlarına ev sahibliyi edir. Bütün bunlar idmançıların təcrübə qazanması və peşəkar idmançı kimi formalaşması baxımından mühüm əhəmiyyət daşıyır. Digər tərəfdən, yaradılan şərait gənclərin asudə vaxtının səmərəli təşkilinə və onların idman federasiyalarına cəlbinə səbəb olub. Bu gün gənc idmançılara qayğı göstərilir, onların adı Naxçıvan Muxtar Respublikası gənc istedadlarının “Qızıl kitabı”na salınır.

“Muxtar respublikada idmanın maddi-texniki və təşkilati-hüquqi bazası xeyli möhkəmləndirilib. Yaradılan şəraitin nəticəsində hazırda muxtar respublikada 39 min nəfərə yaxın yeniyetmə və gənc bədən tərbiyəsi və idmanla məşğul olur. Muxtar respublika idmançıları təkcə 2015-ci il ərzində Azərbaycan üzrə birinciliklərdə 30, dünya birinciliyində 8, beynəlxalq turnirlərdə 12 medal qazanıblar”, – deyən Azad Cabbarov bildirib ki, ölkəmizdə həyata keçirilən uğurlu idman siyasətinin tərkib hissəsi kimi bu gün Naxçıvan Muxtar Respublikasında artıq gənc idmançılar nəsli yetişib, idman ustaları formalaşıb. Naxçıvanlı idmançılar ölkə və dünya əhəmiyyətli yarışlarda təmsil olunur və uğurlara imza atırlar.

Gənclər və idman naziri deyib ki, müasir idman infrastrukturunun formalaşdırılması qədim diyarda çoxsaylı beynəlxalq yarışların keçirilməsinə şərait yaradıb. Hazırda muxtar respublikada 2 Olimpiya-İdman Kompleksi, 2 Üzgüçülük Mərkəzi, 1 Şahmat Mərkəzi, 6 Uşaq-gənclər şahmat məktəbi, 9 Uşaq-gənclər idman məktəbi, Stend və Sportinq Atıcılıq Mərkəzi, eləcə də stadionlar, idman zalları və sadə idman qurğuları, 12 idman federasiyası fəaliyyət göstərir.

Azad Cabbarov bildirib ki, bütün idman növləri kimi, kikboksinq idman növü üzrə də muxtar respublika idmançıları bu ilin birinci rübü ərzində bir sıra nailiyyətlər əldə ediblər. Belə ki, Naxçıvan Muxtar Respublikasının Şərq Döyüşü Sənəti Federasiyasının yetirmələri kikboksinq idman növü üzrə Azərbaycan çempionatlarında 9, Avropa çempionatında isə 1 medal qazanıblar.

Kikboksinq idman növünün inkişafında göstərdikləri xidmətlərə görə Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarova, Azərbaycan Kikboksinq Federasiyasının üzvləri Elnur Alıyevə və Xəyyam Abışova fəxri diplomlar verilib.

Sonra kikboksinq üzrə “Azərbaycan kəməri” uğrunda peşəkarlar arasında turnirə start verilib.

Rinqə çıxan 14 idmançı 7 çəki dərəcəsində WAKO versiyası üzrə mübarizə aparıb. Onların arasında ölkəmizi beynəlxalq yarışlarda uğurla təmsil edən idmançılar da var idi.

Turnirdə “Quba”, “Qızıl ələk” idman klublarının və Azərbaycan Daxili İşlər Nazirliyi İdman Cəmiyyətinin yetirmələri Rəvan Şəbiyev (57 kiloqram), Ruslan Musayev (63,5 kiloqram), Ruslan Əliyev (63,5 kiloqram), Rəhim Əliyev (71 kiloqram) Elnur Həmidov (81 kiloqram) rəqiblərini məğlub edərək reytinq döyüşlərinin qalibi olublar.

*“Azərbaycan kəməri” uğrunda gərgin keçən döyüşlərdə isə “Ağsu” idman klubunun yetirməsi Elşad Ələsgərov (54 kiloqram) ilə Daxili İşlər Nazirliyi İdman Cəmiyyətinin üzvü Emil Mövsümov (75 kiloqram) rəqiblərini məğlub edərək zəfər qazanıblar.*

✍ **Rauf ƏLİYEV**

## Basketbol birinciliyinə start verilib



Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş “Heydər Əliyev kuboku” uğrunda 1999-2000-ci illər təvəllüdlü yeniyetmə oğlanlar arasında basketbol üzrə Naxçıvan Muxtar Respublika birinciliyinə start verilib. Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən birincilikdə 8 komanda mübarizə aparır.

Reqlamentə əsasən, birincilik iştirakçıları “A” və “B” qruplarında ilk pillə uğrunda meydana çıxırlar. “A” qrupunda “Naxçıvan”, “Babək”, “Sədərək”, “Şahbuz”, “B” qrupunda isə “Ordubad”, “Culfa”, “Şərur” və “Kəngərli” komandaları yer alırlar.

Üç gün davam edəcək birincilikdə qrup mərhələsini ilk pillədə başa vuran komandalar finalda oynamaq hüququ qazanacaqlar. Qruplarında ikinci olanlar isə üçüncü yer uğrunda meydana çıxacaqlar.

Artıq Naxçıvan Muxtar Respublika birinciliyində qrup oyunlarına start verilib və ilk gündə aşağıdakı hesablar qeydə alınıb:

**“A” qrupu**

*“Naxçıvan”-“Babək” – 41:27*
*“Şahbuz”-“Sədərək” – 15:22*

**“B” qrupu**

*“Ordubad”-“Şərur” – 24:19*
*“Kəngərli”-“Culfa” – 15:36*
*“Şərur”-“Culfa” – 13:37*

*“Naxçıvan-2016” Beynəlxalq Şahmat Festivalının artıq 7-ci turu geridə qalıb. Keçirilən bu turdan sonra festivalda iştirak edən bəzi zəka sahibləri ilə söhbətləşdik.*

## Naxçıvan bizi böyük qonaqpərvərliklə qarşıladı



***Yuriy KUZUBOV (ukraynalı beynəlxalq qrossmeyster):*** “Keçirdiyim oyunlarda 5,5 xal qazanmışam. Belə böyük turnirlərdə qazanılan hər xal sonda uğur gətirə bilər. Hər oyuna böyük məsuliyyətlə yanaşmaq lazımdır. Bu festivalda güclü şahmatçılar mübarizə aparır və onlarla oynamaq mükəmməldir. Festivalın təşkilatçılığı yüksək səviyyədədir. Şəhəriniz gözəldir və məni daha çox cəlb edən təmizliyidir. Hər yer sakit və təmizdir. İnsan özünü çox rahat hiss edir. Bizə yaradılan şəraitə görə şahmatçı yoldaşlarım adından minnətdarlığımı bildirirəm. Asudə vaxtımız da səmərəli təşkil edilib. Onu da deyim ki, Naxçıvanda şahmata böyük maraq var. Festivalın keçirilməsi üçün görülmüş hərtərəfli hazırlıq da yüksək səviyyədədir. Bu səbəbdən də dünyanın müxtəlif ölkələrindən buraya öz gücünü sınamağa gəlmiş şahmatçılar razılıq edirlər. Eyni zamanda yarışın keçirildiyi məkan da ideal olaraq seçilib. Dünyanın bir çox ölkələrində təşkil edilən yarışlarda, turnirlərdə iştirak etmişəm. Naxçıvan Şahmat Mərkəzi beynəlxalq standartlara tam cavab verir”.



***Cankut Emiroğlu (türkiyəli FİDE ustası):*** “İstər təşkilatçılıq, istərsə də güclü şahmatçıların mübarizə aparması turnirə əlavə rəng qatır. Digər şahmatçılar kimi əsas məqsədim qalib olmaqdır. Bu idman növündə qalib olmaq üçün, ilk növbədə, oyuna köklənmək lazımdır. Yalnız ondan sonra qələbə haqqında düşünmək olar. Hələ ki, hər şey qaydasındadır. İnanıram ki, Naxçıvanda keçirilən bu festival karyeramda yaxşı iz buraxacaq və gələcək illərdə təşkil ediləcək turnirlərdə böyük məmnuniyyətlə iştirak edəcəm. Əminəm ki, bu festivalda iştirak edən hər bir şahmatçı mükafatçılar sırasına düşüb-düşməməyindən asılı olmayaraq, Naxçıvandan xoş təəssüratlarla ayrılacaq. Naxçıvan şəhərinə gəldikdə isə deyə bilərəm ki, şəhər sakit və gözəldir. Xüsusilə səhərlər çox sakitçilik olur. Bu da şahmatçılar üçün yaxşı haldır. Eyni zamanda axşamlar şəhərin hər tərəfində işıqların yanması, sakit tərzdə insanların gəzişməsi bizdə xoş təəssürat yaradır. Adətən, oyunlardan sonra şəhəri gəzməyə vaxtımız olur və bundan maksimum istifadə edirik ki, Naxçıvanın görməli yerlərini görək. Naxçıvan bu festivalla dünyanın müxtəlif ölkələrindən gələn insanları bir araya toplayıb. Bu, məncə, böyük nailiyyətdir. Bir də ona görə məmnunam ki, Naxçıvan bizi böyük qonaqpərvərliklə qarşıladı”.

## Festivalın “B” və “C” qruplarında Naxçıvan şahmatçıları liderliklərini davam etdirir



“Naxçıvan-2016” Beynəlxalq Şahmat Festivalının 7-ci turu keçirilib. Bu tur “A” qrupunda iki lider zəka sahibinin qarşılaşması ilə yadda qalıb. Azərbaycanlı beynəlxalq qrossmeyster Eltac Səfərli ukraynalı beynəlxalq qrossmeyster Yuriy Kuzubovu sınağa çəkib. Məğlubiyyətsiz irəliləyən rəqiblər bu görüşdə də ağ-qara taxtadan heç-heçə ayrılıblar. Qrupun ən çox əmsallı şahmatçısı beynəlxalq qrossmeyster Şəhriyar Məmmədyarov belaruslu beynəlxalq qrossmeyster Vadim Malaxatko ilə üz-üzə gəlib və festivalda növbəti bir xalını qazanıb. Maraqla gözlənilən oyunlarda hollandiyalı beynəlxalq qrossmeyster Sergei Tiviakov rusiyalı beynəlxalq qrossmeyster Yevgeni Alekseyevlə, ukraynalı beynəlxalq usta Sergey Pavlov isə almaniyalı beynəlxalq qrossmeyster İqor Xenkinlə qarşılaşıb. Rəqiblər sonda xalları yarı bölməyə məcbur olublar. Ağ-qara taxtanı yarı xalla tərk edənlər siyahısında festivala uğurla başlayan türkiyəli 17 yaşlı FİDE ustası Sevgi Volkan da var. Bu tur o, azərbaycanlı beynəlxalq qrossmeyster Günay Məmmədzadə ilə heç-heçə edib. 7-ci turda gözlənilməz nəticələrdən birinə də azərbaycanlı beynəlxalq qrossmeyster Azər Mirzəyev imza atıb. O, rusiyalı beynəlxalq qrossmeyster Vladimir Burmakini məyus edib və aktivindəki xalların sayını 5-ə yüksəldib.

Naxçıvanlı zəka sahiblərindən FİDE ustası 16 yaşlı Pərviz Qasımov bu turda türkiyəli FİDE ustası Cankut Emiroğlu ilə qarşılaşıb və məğlub olub. Digər şahmatçılarımızdan FİDE ustası Toğrul Həsənzadə FİDE ustası Aydan Höcətovanı, beynəlxalq qrossmeyster Urfan Sevdimalıyev isə FİDE ustası Vüqar Əsədlini sınağa çəkib. Toğrul rəqibini məğlub etsə də, Urfan heç-heçə ilə barışmalı olub.

Bu turdan sonra Eltac Səfərli və Yuriy Kuzubov 5,5 xalla turnir cədvəlinə başçılıq edirlər.

“Naxçıvan-2016” Beynəlxalq Şahmat Festivalının “B” qrupunda maraqla gözlənilən oyun nəhayət ki, baş tutub. Festivala iddialı başlayan və uğurlu çıxışı ilə diqqəti öz üzərinə cəlb edən naxçıvanlı zəka sahibi Vüsal Abbasov itkisiz irəliləməkdədir. O, bu turda eyni xala sahib olan iranlı şahmatçı Amer Aminini sınağa çəkib və xalları yarı bölüb. Nəticədə, aktivinə daha yarım xal yazdıran şahmatçımız “B” qrupunda 6 xalla lider olan 4 zəka sahibindən biridir.

Festivalın “C” qrupuna da Naxçıvan şahmat məktəbinin yetirməsi başçılıq edir. 7 turdan sonra 6,5 xal toplayan Sadiq Qarayev liderliyini davam etdirir. 12 yaşlı zəka sahibimiz bu turda qrupun ən çox əmsalı olan şahmatçısı Kənan Qasımovla xalları yarı bölüb.

✍ **Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Naxçıvan şəhəri, Sabir küçəsi, döngə 1, ev 36-da yaşamış Zeynalov Mənsum Hüseyn oğlunun adına olan 7363 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Cabbarlı Tuncay Vüqar oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 379